**Nadir İsmayılov,**
*BDU Biblioqrafiyaşünaslıq kafedrasının*
*müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*kafedra_biblioqraf@mail.ru*

# SƏNƏD AXINI, STRUKTURU VƏ TƏHLİLİ

***Xülasə:*** *Məruzədə sənəd-informasiya axını, onun strukturu, təhlili üsulları haqqında qısa məlumat verilmişdir.*

***Açar sözlər:*** *sənəd axını, kəmiyyət göstəricisi, kitabxana, biblioqrafik fəaliyyət*

Müasir cəmiyyətin həyatı kommunikasiya sistemləri ilə çox bağlıdır. Bu sistem çərçivəsində cəmiyyətin informasiya tələbatının ödənilməsi sahəsində böyük həcmli işlər aparılır. Professional baxımdan bu prosesdə müxtəlif sosial institutlar iştirak edir ki, onların da əsas funksiyası sənədlərlə məqsədyönlü iş aparmaqdan ibarətdir. Faydalı informasiyanın yaradılması və səmərəli yayılması ilə elmi təşkilatlar, o cümlədən kitabxana-informasiya mərkəzləri və başqa orqanlar məşğul olur.

Tarixən sənədlərin işlənməsi, mühafizəsi və onlardan ictimai istifadənin səmərəli təşkili sahəsində öz missiyasını tam yerinə yetirən qədim institutut kitabxanalar hesab olunur. Əsrlər boyu məhz kitabxanalar bəşəriyyətin yaratmış olduğu bütün yazılı sərvətlərdən ictimai istifadəni təmin etmişdir. Bu müddət ərzində kitabxanalar sənədlərlə səmərəli işləmək üçün onların növ tərkibini, xüsusiyyətlərini səciyyələndirmək məqsədilə böyük həcmdə elmi- metodik işlər görmüşlər. Belə ki, kitabxanalar öz təbiəti etibarilə sənədlərlə bağlıdır. Bu başqa cür ola da bilməz. İnformasiya daşıyıcısının maddi forması, informasiyanın yazılması və təqdim olunması texnologiyası o qədər prinsipial əhəmiyyət kəsb etmir, nəinki, cəmiyyətin maraqlarına uyğun olaraq onların saxlanması və istifadəsinin təşkili üçün yaradılan sosial əhəmiyyətli informasiyalar sənəd anlayışının əsasında durur. Məhz bunun nəticəsində elmi- metodik biliklər sistemi kimi sənədşünaslıq elmi yaranmışdır. Sənədşünaslığın əhəmiyyəti sosial həyatın bütün sahələrində sənədli informasiyanın kütləvi istehsalı və istehlakı ilə əlaqədardır.

Sənədşünaslıq özündə informasiyanı hifz edən hər hansı sənədi maddi obyekt kimi öyrənir. Bütün elmlər kimi sənədşünaslığın da öz obyekti, metodları və öyrənmə vasitələri vardır. Onlar sənəd axınının inkişaf dinamikası, zəruri

sənədlərin işlənməsi və axtarışı, sənədli informasiyanın yaradılması və istifadəsi ilə məşğul olan sosial institutların inkişaf səviyyəsindən və digər amillərdən asılıdır. Sənədşünaslığın texnologiyasına isə informasiyanın əks olunması vasitələri daxildir Peşəkar biblioqrafın, informasiya mühəndisinin, informasiya təhlilçisinin işinin əsas xüsusiyyəti ondan ibarətdir ki, onların peşə fəaliyyətinin predmeti dünya informasiya axınıdır. Sənəd axını- cəmiyyətdə fəaliyyət göstərən və bir - birilə məzmunca bağlı olan sənədlər çoxluğudur. Sənəd haqqında nəzəriyyənin formalasması prosesi bir sıra bir sıra elmlərin, o cümlədən- kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın, sənədşünaslığın, informatikanın, hüquqşünaslığın, mənbəşünaslığın, arxivşünaslığın, ədəbiyyatşünaslığın və jurnalistikanın, menecmentin və s. ümumi nəzəriyyəsi ilə bilavasitə paralel inkişaf etmişdir. Sənədşünaslıq ümumiləşdirilmiş termin olaraq sənəd haqqında təlim kimi 1940-cı ildə tarixi xarakterli akt və sənədlər haqqında anlayış olan "diplomatika" termininin əvəzinə işlənilmişdir. Keçən əsrin ikinci yarısından etibarən sənədçilik və arxivşünaslığın nailiyyətlərindən istifadə etməklə idarəetmə nəzəriyyəsində işgüzar sənəd dövriyyəsinin nəzəri məsələlərinin aktuallaşması fonunda sənədşünaslıq termini daha da möhkəmləndi.

Sənədşünaslığin kifayət qədər müstəqil istiqamətlərinin formalaşması prosesi sənədşünaslığın bir elm kimi strukturu haqqında biliklərin dəyişməsinə gətirib çıxartdı. Müasir dövrdə artıq sənədşünaslıq fənlərarası səciyyə dasıyan elm kompleksi hesab olunur.

Konkret olaraq sənədşünaslığın elmlər sistemində yerinin müəyyən edilməsi uzun müddət mübahisəli olaraq qalır və bu məsələ praktiki olaraq qəti həllini tapmayıb. Onun kompleks xarakter daşıması səbəbindən sənədşünaslığın sosioloji, bütövlükdə sosial kommunikasiya haqqında elmlər sisteminə aid edilməsi təşəbbüsləri bu gün də aktualdır. Mütəxəssislər təklif edirlər ki sənədşünaslığı sənədlərlə məşğul olan elmlərin –biblioqrafiyaşünaslıq, kitabxanaşünaslıq, arxivşünaslıq, jurnalistika və s. elmi fənlərin tərkibinə aid aid etsinlər. Onlar hesab edirlər ki, bu bilik sahələri professional fəaliyyət baxımından yaxın obyektlərlə məşğul olurlar və buna görə də onlar birlikdə sosial kommunikasiya sistemində müstəqil şəkildə sənəd-informasiya elmi sahəsini yarada bilərlər. Bu gün sənədşünaslıq hesab olunan elmi fənn sosial təbiəti etibarilə sənəd, sənəd kommunikasiyası, kitabxana-biblioqrafiya elmlərinin qovşağında öz yerini tuta bilmişdir.

Sənədşünaslıq-kompleks elmi-təcrübi istiqamət olub, sənədlərin müxtəlifliyi, sosial informasiyanın təqdim olunmasının vasitə və üsullarını tədqiq edir.

Bu elm sahəsi sənədlərin yaradılması və fəaliyyət göstərməsi, sənəd kütləsinin təhlilinin üsul və metodlarının qanunauyğunluqlarını öyrənir.

Beləliklə, sənədşünaslığın obyektini sənədlər və sənəd axını, predmetini isə onun sosial mühitdə fəaliyyət göstərməsi xüsusiyyətləri təşkil edir.

Bütün elmlər kimi sənədşünaslıq da müəyyən struktura malikdir.

Sənədşünaslığın öyrəndiyi əsas obyektlərdən biri də sənəd axınıdır.

Sənəd axını – məzmunca əlaqəli, dayanmadan inkişaf edən sənədlər çoxluğudur. Sənəd axını anlayışı biblioqrafiyaşünaslıq elminə XX əsrin 60-cı illərində daxil olmuşdur. Sənəd axınının kəmiyyət və keyfiyyət xarakteristikalarının analizi sosial fəaliyyətin nəticələrini statik və dinamik şəkildə göstərməyə imkan verir.

Sənəd axını informasiya cəmiyyətinin əsas elementi hesab edilir. Peşəkar məsələlərin effektiv həlli üçün mütəxəssis sənəd axınının inkişaf qanunauyğunluqlarını və strukturunu bilməlidir. O, sənəd axınında dinamik prosesləri xarakterizə edən göstəricilərin müqayisəsi və hesablanmasına dair yenilikləri bilməlidir. Sənəd axınının tətbiqi tədqiqatlarının nəticələri 2 əsas istiqamətdə istifadə oluna bilər:

- Müəssisənin, kitabxananın, informasiya xidmətinin modernləşdirilməsi və inkişafı;
- Oxucuların, daxili mütəxəssislərin və müəssisələrin onların elmi, peşəkar fəaliyyətinə, özünütədrisə kömək məqsədilə sorğularının həyata keçirilməsi.

Sənəd axını həm dünya sənəd axını səviyyəsində, həm ayrı-ayrı sənədlər və onların toplusu səviyyəsində, həm də sənədlərdən olan mətn fraqmentləri, vahid anlayışlar (açar sözlər, predmet rubrikaları, ədəbiyyatın sistemləşdirilməsi sxemi) səviyyəsində öyrənilə bilər. Sənəd axınının öyrənilməsi üçün kəmiyyət (bibliometrik), məzmun (linqvistik, təsnifləşdirmə və s.), informasiyanın analizi və sintezinin keyfiyyət üsulları tətbiq edilir.

Sənəd axınının strukturu – sənədli informasiya mənbələrinin funksional və məzmunca əlaqəsidir. Axının müəllif, növ, tematik strukturu ayrılmışdır. Həmçinin daşıyıcı əlamətinə, yayılma üsullarına, tirajına, sənədlərin həcminə və s. əlamətlərə görə də struktur əlaqələr ayrıla bilər.

Biblioqrafik fəaliyyət zamanı daha çox sənəd axınının tematik, tip-növ, coğrafi, dil, nəşriyyat, təşkilat və müəllif əlamətinə görə strukturu nəzərdən keçirilir.

Sənəd axınının strukturunun biblioqrafiyalaşdırılması və biblioqrafik xidmət zamanı təhlili nəşrlərin seçilməsi və axtarışını asanlaşdırmağa imkan verir. O göstərir ki, hansı müəllif və müəllif kollektivlərinə, müəssisələrə, şirkətlərə, ölkələrə xüsusi diqqət ayırmaq lazımdır.

Bibliometrik tədqiqatların aparılması zamanı struktur xüsusiyyətlərinə görə elmi-praktik fəaliyyətin inkişaf istiqamətləri və vəziyyəti öyrənilir.

Sənəd axınının tədqiqi fondların komplektləşdirilməsinin keyfiyyətinin yüksəldilməsi, yaradılmış informasiya məhsulları və xidmətlərinə tələbatın xüsusiyyətlərinin yaxşılaşdırılması, informasiya müəssisələrinin işinin kordinasiyası və planlaşdırılması, mövcud müəssisənin intellektual və maddi resursları-

nın optimal istifadəsi, sənəd axınının işlənməsi zamanı texnoloji nəzarətin gücləndirilməsi, dünya informasiya bazarında dəqiq pozisiya almağın qeyri-mümkün olduğu müasir şəraitdə marketinq tədqiqatlarının aparılması ilə bağlı olan bir çox sistemdaxili məsələləri həll etməyə imkan verir.

Sənəd axınının strukturunun analizi müxtəlif növ və tip sənədlər arasında əlaqələri aşkar edir, nəşrlərin xarakteri üzrə axını (nəzəri, tətbiqi, eksperimental işlər, faktlar, üsullar və konsepsiyalar arasında əlaqə) öyrənir.

**Ədəbiyyat**

1. Изучение структуры документального потока. Режим доступа: http://www.fellowmanage.ru/xins-632-1.html
2. Структура документального потока. Режим доступа: http://studopedia.org/8-25581.html
3. Суо Нацуми. Документальный поток: структура и закономерности развития. Режим доступа: http://m.diary.ru/~shamomist/p209503775.htm?oam

## Документальный поток, структура и анализ

***Резюме:*** *В докладе представлена краткая информация о документально-информационном потоке, о его структуре и методах анализа.*
***Ключевые слова:*** *документальный поток, количественный показатель, библиотека, библиографическая деятельность*

## Document flow, structure and analysis

***Abstract:*** *The report contains brief information about the documents-information stream, its structure and methods of analysis.*
***Key words:*** *document stream, quantitative index, library, bibliographic activity*